

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 96 (21.757)

*20 may 2017-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Ümummilli lider Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı fəaliyyəti" mövzusunda məşğələ keçirilib

*Naxçıvan Dövlət Universitetində Heydər Əliyev lektoriyasının 213-cü məşğələsi keçirilib.*

"Ümummilli lider Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı fəaliyyəti" mövzusuna həsr olunmuş tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ulu öndərimiz Heydər Əliyevin hələ SSRİ dövründə təhlükəsizlik orqanlarındakı fəaliyyətindən, milli maraqlarımızın qorunması naminə göstərdiyi xidmətlərdən danışıb. "Ölkəmizdə dövlət təhlükəsizliyinin təmin olunması ümummilli liderimizin ənənələrinə əsaslanır", – deyən rektor vurğulayıb ki, Heydər Əliyevin milli təhlükəsizlik siyasəti və strategiyası bu gün onun siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

"Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı fəaliyyəti" mövzusunda çıxış edən universitetin Azərbaycan tarixi kafedrasının dosenti Nadir Hüseynbəyli Azərbaycanın müstəqilliyinin əsaslarının ulu öndərimiz Heydər Əliyevin dövlət təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi vaxtlarda qoyulduğunu önə çəkərək qeyd edib ki, dahi şəxsiyyət həmişə müstəqil Azərbaycanın iqtisadi, elmi, texniki və hərbi imkanlarının formalaşdırılmasına böyük önəm verib. Ümummilli liderin dövlət təhlükəsizlik orqanlarında apardığı milli kadr islahatının nəticəsidir ki, dövlətçiliyimizin möhkəmləndirilməsinə uğurla xidmət edən böyük ziyalı nəsli yetişib.

İncəsənət fakültəsinin II kurs tələbəsi Səyyad Məmmədov məruzəsində ulu öndər Heydər Əliyevin dövlət təhlükəsizlik orqanlarındakı fəaliyyətinin Naxçıvan dövründən bəhs edib. Qeyd olunub ki, böyük şəxsiyyətin təhlükəsizlik orqanlarında milli əsaslara söykənən iyirmi beş illik möhtəşəm fəaliyyətinin Naxçıvan dövrü bütün zamanların ən böyük Azərbaycanlısının ideal həyat salnaməsinin qiymətli səhifələrinə, tariximizin şərəfli mərhələsinə çevrilib. Müstəqil dövlətimizin bu günü və gələcəyi ulu öndərimizin əbədiyaşar siyasi kursunun, şanlı ideyalarının şəfəqlərinə bürünüb.

**Səadət ƏLİYEVA**

## Türkiyə səfiri Naxçıvanın mədəniyyət və tarixi abidələri ilə tanış olub





Xəbər verdiyimiz kimi, Türkiyənin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Qonaq səfər çərçivəsində muxtar respublikanın mədəniyyət və tarixi abidələri ilə tanış olub.

Diplomat ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gələrək gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Erkan Özoral Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına da gəlib, xiyabandakı Türk Ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidə önünə və şəhidlərimizin məzarı üzərinə gül dəstələri qoyub.

Naxçıvan Biznes Mərkəzində səfirə mərkəzin fəaliyyəti və muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri barədə məlumat verilib. Qeyd edilib ki, hələ 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və satışı, sahibkarların tədris-informasiya mərkəzi kimi yaradılan mərkəz 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirir. 2013-cü ildən isə mərkəz yeni inşa edilmiş binada fəaliyyət göstərir.

Bildirilib ki, mərkəzdə muxtar respublikanın 96 istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən məhsullar nümayiş olunur. Bu gün muxtar respublikada 367 növdə məhsul istehsal edilir. Bu məhsulların 121 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir. Bütün bunlar – iqtisadiyyatın şaxələndirilməsinin və sahibkarlara dövlət dəstəyinin gücləndirilməsinin, özəl sektorun inkişafına yaradılan şəraitin bəhrəsidir.

Qonaq "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi ilə tanışlıq zamanı məlumat verilib ki, bu abidə 1186-cı ildə tikilib. Həmin dövrdə Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının məzarı üzərində məqbərə yaradılmasına qərar verib və bundan sonra məqbərə tanınmış memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilib. Türbə yeraltı, yəni sərdabə və yerüstü hissələrdən ibarətdir.

Açıq səma altında nümayiş etdirilən daş abidələr haqqında da diplomata ətraflı məlumat verilib. Naxçıvan Muxtar Respublikası ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi – daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr qonaqda böyük maraq oyadıb.

Xan sarayında olarkən qonağa bildirilib ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində qonağa eramızdan əvvəl V-VIII minilliklərə aid olan müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, qiymətli eksponatlar haqqında ətraflı məlumat verilib.

Muxtar respublikanın mədəniyyət və tarixi abidələri ilə tanışlıq Türkiyə səfirində xoş təəssürat yaradıb.

Türkiyənin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralın Naxçıvana səfəri mayın 18-də başa çatıb.

### Erkan Özoral: Naxçıvan şəhərinin müasirliyi və tarixi abidələri məndə xoş təəssürat yaratdı



Azərbaycanın dilbər guşəsi olan Naxçıvana səfərimdən çox məmnunam. Naxçıvan şəhərinin müasirliyi və tarixi abidələri məndə xoş təəssürat yaratdı. Son dəfə Naxçıvan Muxtar Respublikasında 8 il əvvəl olmuşdum. Həmin vaxtdan Naxçıvanın müsbət mənada çox dəyişildiyini, inkişaf etdiyini gördüm.

Bu sözləri "Şərq qapısı" qəzetinə müsahibəsində Türkiyənin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral deyib.

Muxtar respublikada bir sıra yüksək səviyyəli görüşlər keçirdiyini bildirən səfir Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında əlaqələrin daha da inkişaf etdirilməsi imkanlarını müzakirə etdiklərini diqqətə çatdırıb.

"Naxçıvan Muxtar Respublikası Türkiyə üçün çox əhəmiyyətli bir bölgədir. Çünki Naxçıvan Azərbaycanla Türkiyə arasında yeganə quru sərhədi olan körpü rolunu oynayır", – deyən səfir qədim diyara bir daha gəlmək arzusunda olduğunu da bildirib.

**Tural AĞAYEV**

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq, dünən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin hüquqşünaslıq, dövlət və bələdiyyə idarəetməsi ixtisaslarında təhsil alan II və III kurs tələbələri ilə görüş keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev bildirib ki, sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə nazirliyin və Naxçıvan Dövlət Universitetinin 8 oktyabr 2015-ci il tarixli birgə tədbirlər planı təsdiq edilib, universitetin nazirliyin hamiliyinə verilmiş müvafiq ixtisaslarının tələbələri ilə müxtəlif tədbirlər həyata keçirilib.

Qeyd olunub ki, nazirlik hər il öz iş planına tələbələrin hamiliyi ilə bağlı bənd daxil edir və tələbələrlə görüşlər keçirilir.

Diqqətə çatdırılıb ki, nazirlikdə və Məhkəmə Ekspertiza Mərkəzində olan tələbələr nazirliyin şöbə və bölmələrinin işi ilə maraqlanıb, Məhkəmə Ekspertiza Mərkəzinin müvafiq laboratoriyalarında ekspertiza işlərinin aparılmasında yaxından iştirak ediblər. Həmçinin Naxçıvan Şəhər Bələdiyyəsi və nazirliyin Penitensiar Xidmətində hər iki müəssisənin iş prinsipi ilə tanış olublar.

Naxçıvan Dövlət Universiteti ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi arasında qarşılıqlı əməkdaşlığın yüksək qiymətləndirən Suliddin Əliyev bu istiqamətdə fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyini vurğulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin rəisi, ədliyyə müşaviri Səttar Zamanov və Məhkəmə Ekspertiza Mərkəzinin rəis müavini, ədliyyə müşaviri Elman Abbasov çıxış edərək aidiyyəti sahələr üzrə tələbələrə məlumatlar veriblər.

Tədbirə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev yekun vurub.

✍ **Səbuhi HƏSƏNOV**

## Şərur rayonunun daha üç kəndində kompleks quruculuq tədbirləri aparılır

Özünün yeni inkişaf mərhələsini yaşayan Şərurda son illər həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri, reallaşdırılan iqtisadi layihələr bölgəyə böyük yeniliklər gətirib, insanların həyat səviyyəsi xeyli yüksəlib. Rayon mərkəzi, bölgənin kəndləri füsunkar bir gözəlliyə qovuşub, yenilənib, müasirləşib. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər bəhrələrini verib. Kənd yaşayış məntəqələrində müasir infrastruktur yaradılıb.



Hazırda bölgənin daha üç yaşayış məntəqəsi – Ərəbyengicə, Qarahəsənli və Ələkli kəndləri, sözün həqiqi mənasında, yeniləşmə mərhələsindədir. Arazqırağı zonada yerləşən bu yaşayış məntəqələrində iki ay əvvəl genişmiqyaslı tikinti-quruculuq tədbirlərinə başlanılıb. Bu tədbirlər çərçivəsində yeni obyektlərin tikintisi və ya mövcud obyektlərin yenidən qurulması, kəndarası yolların genişləndirilməsi, yol kənarlarındakı köhnə palçıq hasarların sökülməsi, yerində daşdan divar hörülməsi və suvanması, elektrik, qaz və rabitə xətlərinin yenilənməsi nəzərdə tutulub.

Hazırda Ərəbyengicə kəndində üçmərtəbəli, 192 şagird yerlik məktəb binası, həkim ambulatoriyası, Qarahəsənli kəndində 198 şagird yerlik iki mərtəbədən ibarət orta məktəb binalarının, hər iki yaşayış məntəqəsində kənd və xidmət mərkəzlərinin inşası sürətlə davam etdirilir.

Bu obyektlərin tikintisi Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinə həvalə olunub.

Rayonun Ələkli kəndinə də quruculuq tədbirlərindən pay düşüb. Burada da kompleks quruculuq tədbirləri həyata keçirilir, üç mərtəbədən ibarət 216 şagird yerlik orta məktəb binası, kənd və xidmət mərkəzləri, musiqi məktəbi üçün binalar inşa olunur. Tikinti işlərini "Artay" LTD-nin inşaatçıları həyata keçirirlər.

Tikilən bütün obyektlər mərkəzləşdirilmiş istilik sistemi ilə qızdırılacaqdır. Görülən işlər zamanı keyfiyyət amili və yerli inşaat materiallarından istifadə diqqət mərkəzində saxlanılır. Obyektlər lazım olan tikinti materialları ilə təchiz edildiyindən boşdayanma hallarına yol verilmir. İnşaatçılara yaradılan şərait bütün işlərin vaxtında yekunlaşdırılacağına inam yaradır.

**Elman MƏMMƏDOV**

# Təbliğatsız turizm kompassız gəmi kimidir,
## yaxud hərəyə bir foto çəkək

***Deyirlər, Tanrı həm də böyük və peşəkar bir rəssamdır. Onun qüdrətini, varlığını göstərən şah əsərlərindən biri də ucsuz-bucaqsız kainat, eləcə də Yer kürəsidir. Adı “Dünya” olan bu möhtəşəm tabloda sivilizasiyaların, mədəniyyətlərin beşiyi sayılan Naxçıvan özünəməxsus çalarları ilə seçilir. Uca Yaradan bu diyara öz səxavət kisəsindən hər cür pay verib. Rəngarəng iqlim, dəli-dolu çaylar, şəfalı otlar, yamyaşıl orman və çılpaq düzlər min illərlə ulularımıza can-ruh bəxş edib, onları möhkəm tellərlə doğma torpağa bağlayıb.***

### *Bu bağlılıqdan böyük və ilahi bir eşq – Vətən sevgisi doğulub-böyüyüb*

Həmin böyük sevgi hesabına bu yurd qorunub, yaşadılıb və müasir mərhələyə gəlib çatıb. Qan su yerinə axıb, daş-daş üstə qalmayıb, dəfələrlə dağıdılaraq yerlə-yeksan edilib… Amma dahi rəhbərimiz Heydər Əliyevin sözləri ilə desək, Naxçıvan tamamilə yanıb kül olub, lakin o küllərin içindən qalxaraq yenidən canlanıb. Babək mübarizəsini də görüb, Atabəylər intibahını da, Teymurləng istilasını da... Amma öz qəddini heç vaxt əyməyib. İlahinin bu torpağa sevgisi bu yurdun insanlarına da sirayət edib: onlar Naxçıvan tablosuna yeni rəng və çalarlar qatıb, onu tikib-qurub, qoruyub və gözəlləşdiriblər. Ona görə də Naxçıvan bu gün “Gəmiqaya” qədimliyi, “Əshabi-Kəhf” müqəddəsliyi, “Duzdağ” möcüzəsi, “Haçadağ” ucalığı, “Əlincə” məğrurluğu, “Batabat” füsunkarlığıdır… Dədə Qorqud müdrikliyi, Hüseyn Cavid bəşəriliyi, Mirzə Cəlil yanğısı, Heydər Əliyev ucalığı olan Naxçıvan, həm də Məmməd Araz qələmidir:

***Sinəmdə o yerin dağ havasıdır,***
***Qaynar bulaqları qaynar qanımda.***
***Mənim ürəyimin bir parçasıdır***
***Doğma Şahbuzum da, Naxçıvanım da.***

Naxçıvan həm də bir az İslam Səfərli məhəbbətidir:

***Dünyada hər yerdən xoş gəlir mənə***
***Bu Şərqin qapısı, Şərqin Günəşi...***

Düzdür, həm Məmməd Arazdan, həm də İslam Səfərlidən gətirdiyimiz bu nümunələr çox gözəldir. Amma etiraf edək ki, Nuh Peyğəmbər yurdunu – Nəqşi-cahanı vəsf və tərənnüm etməyə hər qələmin, hər sözün də gücü çatmır! Bəs təbliğ etməyə, onu tanıtmağa necə?!

Bu barədə bir qədər sonra...

### *Uğurlu təbliğat milyonlarla turist və milyonlarla pul gətirir*

Təbii ki, biz bu gün müasir dünyada yaşayırıq və etiraf etməliyik ki, ağıllı təbliğat işi və informasiya siyasəti uğrunda kəskin mübarizə gedir. Çünki bu işin uğurlu tətbiqi hər bir ölkəyə əlavə gəlir, siyasi və maddi üstünlük, mədəni yüksəliş, milyonlarla turist gətirir. Təbii ki, turistlər əliboş olsalar da, cibləri dolu gəlirlər. Yəni belə desək, bizə pul gətirirlər.

Ümumdünya Turizm Təşkilatının açıqladığı hesabata əsasən, son 60 ildə genişlənərək inkişaf edən turizm sektoru dünyada ən sürətlə böyüyən sahələrdən biridir. Əgər dünya turizm gəlirləri 1950-ci ildə 2 milyard dollar idisə, hazırda bu rəqəm trilyon dollarlarla ölçülür. Gələn turistlərin sayına və əldə olunan gəlirlərə görə ABŞ, Fransa, Çin, İspaniya, İtaliya, Türkiyə kimi ölkələr liderlik edir. ÜTT 2020-ci ildə bütün dünyada 1 milyard 600 milyon insanın turist şəklində səyahət edəcəyini, bu turistlərin 2 trilyon dollardan artıq pul xərcləyəcəyini proqnozlaşdırır.

Bu gün Azərbaycan dövlətinin də əsas hədəflərindən biri qeyri-neft sektorunun, xüsusən də turizmin inkişafını aktiv müstəviyə keçirməkdir. Bu sahədə görülən işlərin yaxşı nəticələri də var. Son bir il ərzində ölkəmizə gələn turistlərin sayı 2 milyon nəfəri ötüb, gələn gəlirin isə 2 milyard dollardan çox olacağı proqnozlaşdırılır.

### *İnsan təbiətdən uzaqlaşdıqca özünü mənən kasıb və miskin hiss edir*

Heç şübhəsiz, bu gün Naxçıvan nəinki Azərbaycanın, eləcə də dünyanın ən zəngin turizm potensialına malik guşəsidir. Bu diyarda turistlər üçün nə yoxdur?! Yüzlərlə tarixi abidə, gözəl və səfalı təbiət lövhələri, saf su, təmiz hava, müasir infrastruktur və elektron xidmətlər, rahat yollar, gözəl yemək çeşidləri ilə zəngin olan mətbəx, onlarla muzey və otellər, gülərüz insanlar, yamyaşıl kəndlər, ən əsası isə sabitlik və əmin-amanlıq, təhlükəsiz həyat. Elə turistlərə də bütün bu amillər hava-su kimi lazımdır. Çünki insan təbiətdən uzaqlaşdıqca özünü mənən kasıb və miskin hiss edir. Müasir dövrdə gərgin iş, texnoloji rahatlıqdan qaynaqlanan oturaq həyat, avtomobil tıxacları, böyük şəhərlərin səs-küyü, çirkli havası, bir sözlə, monotonluq orada yaşayanları, yumşaq desək, təngə gətirib. Ona görə indi insanlar kəndə, təbiətə daha çox üz tuturlar. Bu isə, öz növbəsində, kənd yaşıl turizm anlayışını aktuallaşdıraraq gündəmə gətirir, kənd əhalisinə heç bir xərc çəkmədən əlavə gəlir əldə etmək imkanı yaradır. İndi Naxçıvan kəndlərində evini və ya evinin 1-2 otağını turistlərə kirayə verən sakinlər az deyil. Üstəlik, sakinlərin istehsal etdiyi təbii süd, qatıq, lavaş, bal, qaymaq, yumurta, şor-kərə, təzə ət üçün elə evin içində vergisiz-rüsumsuz mağaza açılır.

Bir an təsəvvür edin: sübh tezdən – qırmızıquyruq xoruz banlayanda yuxudan oyanırsan, dağ kəndlərində çayın səsi, təmiz hava, şehli-şehli dağ gəzintisi, ekoloji təmiz məhsullar və gülərüz insanlar, qoyun-quzu mələşməsi sənə “gəl-gəl” deyir. Səhər-səhər buz kimi bulaq suyunun adama verdiyi paklığa, yarpızdan, nanədən, kəklikotundan dəmlənmiş Naxçıvanın əsl samovar çayına, ətirli qaymaq və bala, isti təndir çörəyinə, şor, yumurta və qayğanağa da “yox” demək olmur. Bu təbii məhsullar kimi, Naxçıvan göycəsi və tərxunu, Kükü alması, Biçənək balı, Ordubad limonu, Əndəmic heyvası, Nehrəm pendiri, Şərur şaftalısı da artıq brendə çevrilib.

Yəqin siz də bunu çox görmüsüz: kim Bakıdan, Ankaradan, nə bilim Moskvadan zəng vurur, xoş-beş, onbeşdən sonra axırda bir az da utana-utana deyir ki, mənə 2 dəstə tərxun, 1 dənə də limon göndər, bir tikə də keçi pendiri olsa, pis olmaz. Bax, budur Naxçıvan məhsullarının keyfiyyəti, ekoloji təmizliyinin şöhrəti, sərhədlər aşmağı. Heç kim vaz keçə bilmir onlardan. İndi biz nə kimyəvi tərkibli quru süd, nə süni ət, nə də geni dəyişdirilmiş alma yeyirik… Qısası, bu gün Naxçıvan tarixi-mədəni, dini, sağlamlıq, ekoloji, dağçılıq, kənd yaşıl turizm üçün ideal məkandır.

### *“Bir vaxt bu yazıq dövlət ayılıb gördü ki, sirr qoruya-qoruya artıq özünü də qoruya bilmir”*

Onu da qeyd etmək yerinə düşər ki, muxtar respublikanın ümumi ərazisinin 28 faizə qədərini milli park, qoruq və yasaqlıqlar, xüsusi mühafizə statuslu təbiət əraziləri tutur ki, bu da dünyada az-az rast gəlinən göstəricidir. Bu yerdə Xalq şairi Məmməd Araz yada düşür. Vətəndaş şair 1990-cı ildə “Azərbaycan təbiəti” jurnalında dərc olunan “Niyyətimiz haradır, mənzilimiz?..” sərlövhəli məqaləsində sovetin iç üzünü açır və təbiətə laqeyd münasibət barədə ürəkağrısı ilə yazırdı:

“Uzun müddət inanmışıq və inandırmışıq ki, kapitalizm quruluşu və kapitalist ölkələr təbiətin düşmənidir. O, vəhşi kimi təbiəti didib-dağıdır. Bizdə isə filan ildə Leninin dekreti ilə filan qoruq yaranıb. Uzaq yerə getmək lazım deyil, elə qonşularımız Finlandiya, İsveç və Norveçə açıq gözlə baxsaq, çox şey görərik. Belə ehkamlar olmasa, bu ölkələrin gözümüzə batan qorxulu buynuzlarından qorxmasaq, görərik ki, dünyanın ən böyük milli parkları, qoruqları və sair xarici ölkələrdədir. Bu sahədə onlardan az öyrənmişik. Onlar təbiəti qoruyub, amma biz lüzumsuz şüarlar əzbərləmişik. Təbiəti qırıb dağıdadağıda nəğmə demişik: “Təbiət anamızdır”, “Təbiət əbədi güvəncimiz, Vətənimizdir” və sair.

Biz son beş-altı ilə qədər meşələrimizin kütləvi şəkildə qırılmasından, Bakının, Sumqayıtın və digər şəhərlərimizin ekoloji vəziyyətindən kəskin yaza bilmirdik. Bu, “dövlət sirrini açmaq” hesab olunurdu. Bir vaxt bu yazıq dövlət ayılıb gördü ki, sirr qoruya-qoruya artıq özünü də qoruya bilmir. Qarışqadan tutmuş filə qədər, yarpaqdan tutmuş Kür boyunca tənəzzülə gedən Tuqay meşələrinə qədər bütün fauna və floramız “Qırmızı kitab”lıqdır.

İndi isə məsələ qaldırırıq, rəsmi şəxslər bizə deyirlər: “Camaat yeməyə pendir, kolbasa tapmır, düyü-yarma, qənd qəhətə çıxıb, belə məqamda “bizim dağda kəklik oxumur, düzdə ceyran mələmir” kimi məsələlərə baş qatmağa vaxtımız qalmır. Biz ölkə qarşısında cavabdehlik hiss edirik, qayğılarımız, planlarımız var”.

Nə deyəsən, duruxub mat-məəttəl qalırsan yerində. Belə sözləri kimdən eşidirik, hərəsi dövlətin bir sütunu olan adamlardan! Ziyalı belə düşünürsə, gör onda “ziyasız” necə düşünür?”

### *Bu işdə “mən, sən” yoxdur, “hamı” var*

Amma bu gün biz təbiətimizdən, təbii turizm imkanlarımızdan Məmməd Araz kimi ürəkağrısı ilə yox, ağızdolusu danışırıq. Muxtar respublikada son 20 ildə uğurlu ekoloji proqramların icrası və bu sahədə dövlət tərəfindən aparılan digər məqsədyönlü işlər qədim diyara turist axınını sürətləndirib. Təkcə ötən il muxtar respublikaya 400 mindən

*“Dörd fəsildə Naxçıvan” fotomüsabiqəsinə təqdim edilən fotolardan bir neçəsi*


Cavad Ağayev - Şərur rayonu


Elxan Məmmədov - Naxçıvan şəhəri


Duyğu Tahirli - Babək rayonu


Ümman Kərimli - Ordubad rayonu


Turqut Kərimli - Culfa rayonu


Məhəmməd Fərəcov - Naxçıvan şəhəri


Fətdah Səfərov - Ordubad rayonu


Elman Məhərrəmov - Batabat yaylağı


Yeganə Oğuzay - Batabat yaylağı


Elşad Heydərov - Culfa rayonu

*Ardı 3-cü səhifədə*

artıq turist gəlib. Bu rəqəm hər il yüksələn xətlə artır. Naxçıvan Muxtar Respublikası Ali Məclisində bu sahənin inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirələr, qarşıya qoyulan vəzifə və tapşırıqların icrası turizm sektoruna yeni nəfəs verib. Elektron resurslarda aparılan təbliğat işləri, xarici dillərdə yeni tanıtım saytlarının və sosial şəbəkələrdə fərdi səhifələrin yaradılması, qədim diyara info-turların təşkili, informasiya xarakterli buklet və kitabçaların nəşri, Naxçıvan televiziyası və radiosunun internet üzərindən yayımı bu sahədə həyata keçirilən təqdirəlayiq işlərdir. “Naxçıvanı təqdim edirik” devizi ilə keçirilən internet aksiyalarını da xüsusi qeyd etməliyik. Bu aksiyalarda təqdim edilən on minlərlə fotoşəkil və videoçarxlar xarici qonaqların cəlbi baxımından ən uğurlu təbliğat materiallarıdır.

Təbliğatdan söz düşmüşkən, qeyd etməliyik ki, reklamsız, təbliğat-təşviqatsız turizm kompassız gəmi kimidir. Heç vaxt öz yolunu tapa bilməz. Amma gəlin etiraf edək ki, Naxçıvanın turizm potensialının hərtərəfli təbliğatı ilə bağlı hələ tam gücümüzlə iş apara bilmirik. Bilməliyik ki, bu işlər tapşırıq, buyruq gözləmir. Buyruq gözləmək, yersiz əda, qürurbazlıq etmək, ən azı, biganəlikdir. Bir sözlə, bu işdə “sən, mən” yoxdur, “hamı” var... Ona görə də hamımız bu işdə əlimizi daşın, çiynimizi yükün altına qoymaqdan çəkinməməli, əksinə, nümunə göstərməliyik... Elə fərz edək ki, yola bir daş düşüb. Niyə də onu birinci biz götürməyək?!

### *Hərəyə bir foto çəkək…*

İndi Naxçıvanda hər birimizin evində sürətli internet, müasir kompüter, əlimizdə 4G texnologiyasını dəstəkləyən ağıllı və çoxfunksiyalı telefonlar var. Hər birimiz öz yaşadığımız yerin təbiətini, insanlarını, müasir həyatını geniş təbliğ edə və bununla da, hər birimiz Naxçıvana bir turist gətirə bilərik.

Uzağa getmirəm, *naxcivantv.az* saytında bu ilin aprel ayından “Dörd fəsildə Naxçıvan” adlı fotomüsabiqə elan etdik. İlin sonunadək davam edəcək fotomüsabiqədə məqsəd muxtar respublikanın kənd turizm imkanlarını, təbiətini yerli əhalinin, xüsusən gənclərin çəkdiyi fotolarla geniş təbliğ etməkdir. Budur, 2 aydır, elan olunan müsabiqəyə ayrı-ayrı kənd və şəhərdən 20 sakin tərəfindən bir-birindən gözəl 1000-dən artıq fotoşəkil təqdim olunub. Sadə insanlar tərəfindən böyük şövq və sevgi ilə çəkilən həmin fotolar bizə min illər əvvəlin Gəmiqayasını, Qobustanını xatırladır. O zaman nə fotoaparat var idi, nə də videokamera. Amma insanlar öz həyat və məişətlərini, doğma torpağa sevgi və məhəbbətlərini daşlara həkk edib bizə çatdırıb, bir növ, nümunə göstəriblər. İndi müsabiqəyə təqdim edilən şəkillər də saytda yerləşdirilməklə bərabər, “İnstagram”da, “Twitter”də, “Facebook”da, “Google+”da da geniş paylaşılır, gələcək nəsillərə yadigar qalır. Elektron resurslarda Naxçıvana aid şəkillər axtaranda həmin şəkillər izləyicilərə təqdim edilir. Arzu edən hər kəs müsabiqədə iştirak edə, mükafat və hədiyyə qazana bilər. Nəzərdə tutulur ki, müsabiqəyə təqdim edilən fotoşəkillərdən ibarət elektron kataloq da hazırlansın. Qısası, demək istəyirəm ki, indi bu cür imkanlar hamımız üçün vardır və hər birimiz doğma yurdun tanıdılmasında həmin imkanlardan bəhrələnə, Naxçıvanı tanıda-tanıda onu sevdirə də bilərik… Çünki Naxçıvanı tanıyan adam mütləq ona aşiq olur...

### *Vətənpərvərlik təkcə əlində silah postda durmaq demək deyil*

Müasir dövr belədir: təbliğat maşını tək dövlətin və ya 100-200 vətəndaşın, jurnalistin gücünə hərəkət etmir. Ölkəmizin iqtisadiyyatı, özümüzün rifahı üçün bu işlərdə hər birimiz fəal olmalıyıq, vətəndaşlıq mövqeyi göstərməliyik. Vətən qarşısında borcun etalonu – ölçüsü yoxdur. Vətənpərvərlik də təkcə hərbi xidmətə getmək, əlində silah postda durmaq demək deyil. Həyatına bir ağac əkən sakin də, sürünü yaxşı otaran çoban da, vətənpərvər və bilikli şagird yetirən müəllim də, bağ salan bağban da, yurdunu təsvir edən rəssam da, şair də, fotoqraf və kinooperator da vətənpərvərdir. Əlqərəz, hər bir insanın vətənpərvərliyi onun çəkdiyi zəhmət qədərdir. Yeri gəlsə, Vətənin qayası, yeri gəlsə, daşı olmağı bacaranlar elə əsl vətəndaş olurlar. Gəlin hər birimiz qaya-daş olaq və bununla da, əsl vətənpərvər vətəndaş olaq! Bu torpağa sevgimizi əməlimizdə, işimizdə göstərək. Elə ən sadədən başlayaq: ən azı hərəyə bir dənə şəhərimizi, kəndimizi, doğma el-obamızı vəsf edən şəkil çəkib paylaşaq. Çünki hər birimiz Vətən qarşısında borcluyuq. Şair Musa Yaqub isə bu borcun heç vaxt qaytarılmayacağını bilir və Vətən borcundan çıxmağın mümkün olmadığını baxın necə ifadə edir:


Elman Məhərrəmov - Şahbuz rayonu


Rəqsan Səfərov - Şahbuz rayonu


Fətdah Səfərov - Ordubad rayonu


Tural Əliyev - Babək rayonu


Fətdah Səfərov - Ordubad rayonu


Fətdah Səfərov - Ordubad rayonu

*Bəlkə də, borcundan çıxmadım, Vətən,*
*Ömür bahar deyil bir də qayıtsın,*
*Ölsəm də, qoynunda qoy ölüm ki mən,*
*Çürüyüm, bir ovuc torpağın artsın!*

**Sahil TAHİRLİ**
***jurnalist***

## Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin səyyar həkim briqadası Naxçıvanda cərrahiyyə əməliyyatları aparıb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gəlməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında qurulmuş bölgədə analoqu olmayan müasir tibbi avadanlıq və cihazlar, yaradılmış şərait burada mürəkkəb cərrahi əməliyyatların aparılmasına imkan verir. Yüksəkixtisaslı həkim briqadaları yerli həkimlərlə birgə hər il çoxlu sayda müxtəlif cərrahi əməliyyatları uğurla həyata keçirirlər.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin səyyar klinikası may ayı ərzində ikinci dəfə Naxçıvan Muxtar Respublika Xəstəxanasında humanitar tibbi aksiya keçirib.

Həkim-oftalmoloq və anesterioloqlardan ibarət səyyar briqada mayın 18-19-da 150-dən çox müayinə, 10 göz əməliyyatı aparıb, pasiyentlərə tibbi məsləhət və tövsiyələr verilib. Səyyar aksiyada göstərilən xidmətlərdən yaşlı nəslin nümayəndələri ilə yanaşı, gənclər də istifadə edib. Bu aksiya onlarla ailənin sevincinə səbəb olub.

Şərur rayonunun Alışar kənd sakini Vaqif İsmayılov bildirib ki, aksiya çərçivəsində onun üzərində mürəkkəb göz əməliyyatı aparılıb. O, başqa yerlərə getmədən muxtar respublikada pulsuz əməliyyat olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib.

Xatırladaq ki, Milli Oftalmologiya Mərkəzinin səyyar klinikası 6-8 may tarixlərində də Naxçıvan Muxtar Respublika Xəstəxanasında humanitar tibbi aksiya keçirib, 170-dən çox müayinə, 18 göz əməliyyatı aparıb.

Mərkəzin baş həkimi Aytən Sultanova Naxçıvan Muxtar Respublika Xəstəxanasında belə müayinələrin ayda bir dəfə olmaqla ilboyu keçiriləcəyini bildirib.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

## Daşınmaz əmlakına zərər dəymiş vətəndaşlara sığorta ödənişləri verilib

***Naxçıvan Muxtar Respublikasında sığorta fəaliyyəti istiqamətində aparılan işlər gözlənilməz hadisələr nəticəsində vətəndaşlara dəymiş zərərlərin əvəzinin ödənilməsində mühüm əhəmiyyət daşıyır. Belə ki, muxtar respublikamızda həyata keçirilən daşınmaz əmlakın icbari sığortası təbii fəlakətlər və gözlənilməz hadisələr nəticəsində vətəndaşların evlərinə və fərdi mənzillərinə dəymiş zərərlərin əvəzinin ödənilməsinə zəmanət verən mühüm vasitədir.***

“İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, sığorta hadisələri baş verdikdə sığortalanmış daşınmaz əmlak sahiblərinə dəymiş zərərlər sığorta orqanları tərəfindən qiymətləndirilərək əmlak sahibinə ödənilir. Sığorta işinin günün tələbləri səviyyəsində qurulması da vətəndaşların bu vacib tələbatının ödənilməsinə xidmət edir.

Son dövrlərdə muxtar respublika ərazisində baş vermiş güclü yağış və külək, leysan, eləcə də ayrı-ayrı vətəndaşların yaşayış evlərində baş vermiş yanğın hadisələri nəticəsində sığortalı vətəndaşlara dəymiş zərər məbləğləri hesablanaraq ödənilmişdir. Belə ki, muxtar respublika dövlət sığorta agentliklərinə daxil olmuş müraciətlərə əsasən təbii fəlakətlərdən zərər görmüş sığortalı daşınmaz əmlaklara baxış keçirilmişdir. Ümumilikdə, Naxçıvan şəhərində 18, Şərur rayonunda 9, Babək rayonunda 16, Culfa rayonunda 5, Kəngərli rayonunda 6, Şahbuz rayonunda 4 yaşayış evinə dəymiş zərər məbləğləri dövlət sığorta agentlikləri tərəfindən ödənilmişdir. Hazırda digər vətəndaşların yaşayış evlərinə dəymiş zərərlə bağlı müraciətlərinə baxılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi öz əmlakını sığorta etdirməmiş vətəndaşlara bildirir ki, onlar qanunvericiliyə uyğun olaraq daşınmaz əmlakını sığorta etdirməklə gələcəkdə baş verməsi ehtimal olunan gözlənilməz hadisələrə qarşı hazırlıqlı olmaqla etibarlı sığorta təminatı qazanırlar.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Baş Sığorta Agentliyinin***
***mətbuat xidməti***

## Nehrəm kəndindəki “İmamzadə” türbəsində təmir-bərpa işləri davam etdirilir



Qədim və zəngin tarixi keçmişə malik olan Naxçıvan çoxsaylı abidələri ilə tanınır. Onlardan muxtar respublikanın müxtəlif bölgələrində yerləşən imamzadələr xüsusilə seçilir. Sənətkarlıq və memarlıq baxımından yüksək zövqlə işlənən bu tarixi tikililər müstəqillik illərində hərtərəfli qayğı ilə əhatə olunublar. Onların bərpası və elmi əsaslarla tədqiq olunmasının qayğısına qalınıb. Məlumat üçün deyək ki, əvvəlki illərdə Naxçıvan şəhərində və Şərur rayonunun Xanlıqlar kəndində yerləşən imamzadələrdə bərpa işləri aparılıb.

Artıq may ayından etibarən Babək rayonunun Nehrəm kəndindəki “İmamzadə” türbəsində də bu işlər davam etdirilir. Hazırda türbənin fasadında yenidənqurma işləri aparılır. Türbə, təkyə və yardımçı binalardan ibarət olan böyük kompleksin ətrafında yaşıllıqlar salınacaq, işıqlandırma sistemləri qoyulacaq. Kompleksin özəyini təşkil edən türbənin içərisindəki qəbrin üstü səndurə formasındadır. Əhali arasında yayılan rəvayətə görə, qəbirdə şiələrin yeddinci imamı Musa Kazımın oğlu Seyid Əqil dəfn olunub.

Görülən işlər nehrəmlilərin böyük sevincinə səbəb olub. Kənd sakini Hacı Əli Salahov və Tofiq Abutalıbov bildirdilər ki, Nehrəm milli və mənəvi dəyərlərə sıx bağlı bir yurd yeridir. Ötən ilin noyabr ayında Ali Məclis Sədrinin iştirakı ilə kəndimizdə daha bir məscid binası istifadəyə verildi. “İmamzadə”nin bərpa olunması isə islami dəyərlərə verilən yüksək qiymətin daha bir ifadəsidir. Ümumilikdə isə dini-mədəni və tarixi-memarlıq kompleksi olan bu tikilinin bərpası ölkə mədəniyyətinə və bəşər sivilizasiyasına verilən bir töhfədir.

İşlər yekunlaşdıqdan sonra həm ziyarətgah, həm də tarixi abidə kimi bu türbə Naxçıvana gələn yerli və xarici turistlərin ən çox üz tutacaqları məkanlar sırasında olacaq.

**Muxtar RZAZADƏ**

## Milli və mənəvi dəyərlərimizi qoruyub gələcək nəsillərə çatdırmaq hər birimizin borcudur

***Milli və mənəvi dəyərlər hər bir xalqın dünyagörüşünün, adət-ənənələrinin, xarakterik xüsusiyyətlərinin min illər ərzində formalaşması, qorunması, inkişaf etdirilməsi, yaşadılaraq bu günə çatdırılması nəticəsində var olub. Hər bir xalqın milli və mənəvi dəyərləri, yaşayış tərzi, adət-ənənəsi onun dünyagörüşündə, şifahi xalq yaradıcılığında, ədəbi-bədii nümunələrində öz əksini tapır. Vətən və torpaq kimi milli dəyərlər də qorunur, nəsildən-nəslə miras olaraq ötürülür.***

Adət-ənənələri, keçmişinə bağlılığı ilə nümunə olan Azərbaycan xalqı zaman-zaman öz qonaqpərvərliyi ilə ölkəmizə gələn başqa xalqların nümayəndələrini heyrətləndirib. Burada yaşayan qədim etnos və tayfalar haqqında məlumat verən səyyah və tarixçilər öz qeydlərində xalqımızın dinidünyəvi görüşlərindən ətraflı söhbət açıb, onun əxlaqi keyfiyyətlərinə, adət-ənənələrinə hörmətlə yanaşıb, öz heyranlıqlarını ifadə ediblər.

Xalqımızın ən böyük mənəvi dəyərlərindən biri də milli geyimlərimizdir. Tarixboyu istər qadınların, istər kişilərin geyimlərində xalqımızın nümayəndələri əxlaqi dəyərləri ön planda tutublar. "Kitabi-Dədə Qorqud" dastanında da bunun şahidi oluruq. Vətən darda olanda, ər döyüşlərində qadınların kişilər kimi at çapması, ox atması, döyüş paltarı geyinməsi və digər belə tarixi faktlar məhz Azərbaycan qadınının milli mənliyinə sədaqətini, mənəvi cəhətdən kişilərlə bərabərliyini, əyilməzliyini əks etdirib.

Bütün dövrlərdə Azərbaycan qadını öz ailəsinə, Vətəninə sədaqəti ilə seçilib, bunu əməlləri ilə sübut edib. Tomrisin, Sara xatının, Nigarın, Həcərin, Fərizənin və onlarla adını çəkə bilmədiyimiz qadınlarımızın timsalında bunu daha aydın şəkildə görmək mümkündür.

İgidlik, qəhrəmanlıq, aman diləyənə qılınc qaldırmamaq, xəyanət etməmək, sadiqlik, sözübütövlük, özündən böyüklərə hörmət və digər bu kimi adət-ənənələrə bağlılıq Azərbaycan xalqının yaddaşına, hafizəsinə həkk olunub. Qonaqpərvərlik, qonşularla yaxşı münasibət, kasıba əl tutmaq, sevinci paylaşmaq, kədərə şərik olmaq, xəstənin, ahılın xətrini əziz tutmaq, onlara şəfqət göstərmək kimi gözəl əməllər daima yaşadılıb və bu gün də yaşadılmaqdadır. Vətən övladlarının igidlikləri, qəhrəmanlıqları nəğmələrə döndü, dillər əzbəri olub. Qədim dövrə aid Qobustan abidələrindəki "Qavaldaş", qayalardakı milli rəqs elementləri, Dədə Qorqudun qopuzu, Dədə Ələsgərin sazı, neyin yanıqlı səsi, tarın "zəngulə"si, kamanın "iniltisi", muğam, segah xalqımızın keçmişindən, bu günündən, milli musiqimizin qüdrətindən xəbər verir. Üzeyir, Xan Şuşinski, Bülbül, Sara Qədimova, Şövkət Ələkbərova, Qara Qarayev, Niyazi, Rəşid Behbudov kimi sənətkarlar "İldırımlı yollarla", "Dərələr"dən keçərək xalqımızın yeni-yeni salnamələr yaratdığını bu sirli-sehrli "Qoca dünya"ya car çəkirlər. Bizə milli musiqimizin ruhunu bəxş edənlər öz musiqiləri ilə onu yad təsirlərdən qorumalı, ona sahib çıxmalı olduğumuzu xatırladırlar.

"Əxlaqı gözəl olanın özü də gözəl olar", – deyiblər. Məhz buna görə də hər bir azərbaycanlı ailəsində uşaqların tərbiyəli, milli dəyərlərə sədaqətli böyüməsinə xüsusi diqqət yetirilir. Hətta bununla bağlı xalq arasında məsəllər, atalar sözləri də yaranıb. "Uşağım əzizdir, tərbiyəsi ondan da əziz", "Uşaq ailəsinin güzgüsüdür" kimi deyimlərdə xalqımızın mənəvi irsi əks olunub. Bu mənada, istər ailədə, istər təhsil ocaqlarında, istərsə də mədəniyyət müəssisələrində yeniyetmə və gənclərimizin Vətəninə, millətinə, milli və mənəvi dəyərlərinə bağlı şəkildə tərbiyə olunması mühüm amillərdən biridir.

Haqlı olaraq qürurlandığımız milli dəyərlərimizi olduğu kimi qiymətləndirməklə yanaşı, bu dəyərlərin daima yad təsirlərə məruz qaldığını da unutmamalıyıq. Etiraf edək ki, bəzən cəmiyyətimizə yad ünsürlərin təsiri ilə geyim və davranışlarında fərqlilik yaratmağa çalışan gənclərə də rast gəlinir. Onlar bayağı musiqilər dinləməklə, millilikdən uzaq geyim-keçimləri ilə zövqlərini korlayır, bu kimi mənfi xüsusiyyətlərlə mənəvi dəyərlərimizə necə zərbə vurduqlarını dərk etmirlər. Bax elə buna görə də cəmiyyətdə belələri ictimai qınağa tuş gəlməlidir. Sevindirici haldır ki, bu gün ölkəmizdə, o cümlədən muxtar respublikamızda yeniyetmələrimizin Vətəninə, millətinə layiqli bir vətəndaş kimi böyümələri üçün dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il fevralın 7-də imzaladığı Sərəncama uyğun olaraq muxtar respublikada xalq yaradıcılığı günlərinin keçirilməsi, milli dəyərlərin qorunması, təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Ali Məclis Sədrinin 2014-cü il dekabrın 19-da imzaladığı "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncama uyğun olaraq, tariximizin, maddi-mədəni irsimizin qorunub saxlandığı muzeylərə kollektiv gedişlər bir ənənə halını alıb. Muxtar respublikanın zəngin tarixi-mədəni və dini abidələrinin öyrənilməsi, tədqiqi və təbliği istiqamətində görülən işlər həm də milli və mənəvi dəyərlərimizin qorunmasına xidmət edir.

Lakin yuxarıda da qeyd etdiyimiz kimi, müasir dövrdə bəzi yeniyetmələrin davranışları, geyim tərzləri, həyata olan baxışları, habelə ünsiyyət formaları milli dəyərlərimizin təbliği və yaşadılması ilə bağlı hələ də müəyyən problemlərin mövcud olduğunu bir daha bizə xatırladır. Hələ müstəqil düşüncə tərzi formalaşmayan bəzi yeniyetmələrin özlərini ifrat sərbəst və azad göstərmək istəkləri, yanlış davranışları təəssüf doğurur. Axı bu yeniyetmələr xalqımızı və dövlətimizi gələcəkdə müxtəlif sahələrdə təmsil edəcəklər.

Bütün bunlara baxmayaraq, onu da qeyd edək ki, son illərdə yeniyetmə və gənclərimizin əksəriyyəti milli və mənəvi dəyərlərimizə daha sıx bağlanır, həmin dəyərləri yaşadırlar. Sağlamdüşüncəli gənclərimizin yetişməsi bəzi şər qüvvələri narahat edir. Belə qüvvələr uşaq və yeniyetmələri öz təsirləri altına salmaqla onları mənsub olduqları əqidə, əxlaq və məsləkdən uzaqlaşdırmağa çalışırlar. Günümüzdə yeniyetmələrimizin psixikasına təsir edən digər amillərdən biri də müasir informasiya-kommunikasiya texnologiyalarıdır. Bu gün, demək olar ki, bütün evlərdə kompüter var. Buna görə də uşaqlar erkən yaşlarından kompüterlə sanki "dostlaşırlar". Bu, onların xarakterinin formalaşmasına da öz təsirini göstərir, virtual aləmin, internetin təsiri ilə onlarda bir sıra mənfi xüsusiyyətlər yaranır. Yeni informasiya-kommunikasiya texnologiyalarının müsbət tərəfləri ilə yanaşı, təcrübə göstərir ki, kompüter və internetdən istifadə edən yeniyetmə və uşaqlar daha çox mənfi təsirə məruz qalırlar. Övladının sağlam gələcəyini görmək istəyən valideynlər elə etməlidirlər ki, seçdikləri kompüter oyunlarında uşağının idrak səviyyəsinə uyğun faydalı şeylər olsun. Yeniyetmə və uşaqları qorxu və zorakılıq saçan, ölüm və terror səhnələri ilə dolu oyunlar oynamaqdan, habelə bu cür filmləri izləməkdən çəkindirmək lazımdır. Belə film və oyunlar yeniyetmələrdə sağlamaz psixoloji xəstəliklər yaradır. Bütün bunlar isə cəmiyyətimizin sağlam ruhda inkişafına mənfi təsir göstərə bilər.

Biz bu gün demokratik bir ölkədə yaşayırıq. Burada yaşayan hər bir vətəndaş azad və sərbəstdir. Qanun çərçivəsində ölkə vətəndaşlarına hüquq və azadlıqlar verilib. Lakin bu, o demək deyil ki, verilən sərbəstlikdən sui-istifadə edərək milli və mənəvi dəyərlərə zərər vurasan. Unutmamalıyıq ki, Vətəni, torpağı qoruduğumuz kimi, mənəviyyatımızı da qorumaq hər birimizin müqəddəs vəzifə borcudur. Fərq ondadır ki, milli və mənəvi dəyərləri silahla qorumaq mümkün deyil. Bunun üçün ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan hər bir azərbaycanlı milli və mənəvi dəyərlərimizə bağlı olmalı, bu istiqamətdə düzgün təbliğat aparmalıdır. Bu yolda dövlət qurumları ilə yanaşı, hər birimizin üzərinə də mühüm vəzifələr düşür. Övladlarımız vətənpərvər və milli ruhda böyüməli, onlara milli və mənəvi dəyərlərimizin aliliyi olduğu kimi aşılanmalıdır. Elə etməliyik ki, gələcəkdə bizdən sonrakı nəsillər də xalqımızın tarixən formalaşmış ənənələrini unutmasınlar, milli dəyərlərimizə sahib çıxa bilsinlər.

**Bəxtiyar ƏLİYEV**

***"Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 30 iyul tarixli "Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" Sərəncamı ilə fəaliyyətə başlayıb. Həmin gündən muxtar diyarımızda poçt müəssisələri bütün növ xidmətlərin təşkili üçün müasir texnologiyalarla təmin edilib, xidmətin səviyyəsi günü-gündən yüksəldilib.***

## Naxçıvan şəhərində yeni poçt bölmələri istifadəyə verilib



Artan tələbat və yeni texnologiyaların bütün sahələrdə tətbiqi əhaliyə xidmət göstərən poçt bölmələrinin də yenilənməsini, avtomatlaşdırılmasını və yeni poçt bölmələrinin yaradılmasını zərurətə çevirib. Bu günlərdə Naxçıvan şəhərinin "Çənlibel" məhəlləsində əhalinin sıxlığı nəzərə alınaraq yeni – 17 nömrəli poçt bölməsi yaradılıb və istifadəyə verilib. Naxçıvan şəhərindəki 5 nömrəli poçt bölməsi isə əsaslı şəkildə yenidən qurularaq əhaliyə xidmət göstərməyə başlayıb. Hər iki poçt bölməsindəki işçi kompüterlər "Naxçıvanpoçt"un Məlumat Hesablama Mərkəzi şəbəkəsinə qoşularaq lazımi avadanlıqlarla təmin olunub.

Qeyd edək ki, hazırda "Naxçıvanpoçt" MMC 1 mərkəz, 7 filial və 164 poçt bölməsi ilə muxtar respublikamızda poçt xidməti göstərir. Bütün növ xidmət haqlarının yığılması üçün muxtar respublikada, ümumilikdə, 157 poçt məntəqəsi avtomatlaşdırılıb, burada 156 ədəd POS-terminal quraşdırılıb.

Məlumat üçün bildirək ki, "Naxçıvanpoçt" MMC tərəfindən hazırda mavi yanacaq, elektrik enerjisi, su, rabitə xidməti haqları, bələdiyyə, Yeni Azərbaycan Partiyası üzvlük, Dövlət Sosial Müdafiə Fondunun sığorta haqlarının və Dövlət Yol Polisi tərəfindən qeyd olunan cərimələrin qəbulu davam etdirilir. Bu xidmət haqlarını vətəndaşlarımız quraşdırılan POS-terminallardan istifadə etməklə də ödəyə bilir. Eyni zamanda elektrik enerjisi, sudan istifadə haqları və internet ödənişini onlayn ödəyə bilərlər. "Naxçıvanpoçt" MMC-nin kompüter şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulmasından sonra bu sistemə daxil olmuş bütün bank-maliyyə sektorunun və digər qurumların ödənişlərinin poçt məntəqələrində yığılması həyata keçirilir. Naxçıvan şəhərində qaz və elektrik sayğaclarının smartkarttipli sayğaclarla dəyişdirilməsindən sonra poçt bölmələrində həmin kartların yüklənməsi işinin təşkili üçün Naxçıvan Şəhər Rabitə İdarəsinin texniki binasında qoyulmuş server şəbəkəyə qoşulub. Eyni zamanda Naxçıvan şəhərində poçt bölmələri yeni kompüter və kart oxuyucular ilə təmin edilib.

"Naxçıvanpoçt" MMC tərəfindən baratların, bağlamaların qəbulu və ödənişi, dövri mətbuatın abunə və satışı həyata keçirilir. Cəmiyyətin rayon filiallarının mərkəzi poçt şöbələrində elektron imza kartının verilməsinin təşkil edilməsi üçün müvafiq şəbəkə qurulub, "Elektron İmzanın Sertifikat Xidməti Mərkəzi" yaradılıb və lazımi avadanlıqlarla təmin edilib.

Eyni zamanda "Naxçıvanpoçt" MMC-nin nəzdində İtirilmiş əşyaların sahibinə çatdırılması xidməti, cəmiyyətin *www.naxcivanpoct.az* internet saytında "İtirilən əşyaların qeydiyyatı" bölməsi və xidmətin 225 nömrəli "qaynar xətt"i də fəaliyyət göstərir. İtmiş əşyaların sahibinə çatdırılması xidmətinin fəaliyyəti üçün bütün poçt bölmə və məntəqələrində lazımi şərait yaradılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda daha bir mötəbər turnir




Bu ay Naxçıvan Muxtar Respublikası daha bir mötəbər turnirə ev sahibliyi edəcək. Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş futbol üzrə "Heydər Əliyev kuboku" turniri may ayının 26-da start götürəcək.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Peşəkar Futbol Liqası və Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının birgə təşkil edəcəyi turnirdə iştirak edəcək komandalar da artıq məlumdur. Yerli "Araz-Naxçıvan" Peşəkar Futbol Klubu ilə yanaşı, İmişlinin "Mil-Muğan", Zaqatalanın "Zaqatala" və Bakının Mərkəzi Ordu İdman Klubu (MOİK) birincilik uğrunda mübarizə aparacaqlar.

Oyunlar 26, 28 və 30 may tarixlərində Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək. Qrup mərhələsi oyunlarında gün ərzində iki görüş olacaq. Oyunlar saat $12^{00}$ və $17^{00}$-da başlayacaqdır.

Görüşlərdə ən çox xal toplayan komanda turnirin qalibi olacaq, qalib komandaya isə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən Türkiyədə xüsusi olaraq hazırlanmış, sertifikatlı kubok təqdim olunacaq. Eyni zamanda ikinci və üçüncü yerləri tutmuş komandalar medallarla, oyunları idarə edəcək hakimlər plaketlərlə, turnir ərzində fərqlənən futbolçular isə müxtəlif hədiyyələrlə təltif olunacaqlar.

Qeyd edək ki, mayın 26-da start veriləcək futbol üzrə "Heydər Əliyev kuboku" turnirinin açılış mərasimi may ayının 30-da keçiriləcək.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Rəsulov Rəşadət Nemət oğlunun adına olan JN-2043 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 424